Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi



# Aylıq Bülleten

İYUN, 2020

## İnklüziv təhsildə akkomodasiya və modifikasiya

*Təlimdə akkomodasiya*

Müəllim tədris materialının uyğunluğunu təhlil etdikdən sonra seçdiyi təlim metodunun uyğun olub-olmadığını müəyyənləşdirməyə çalışmalıdır. İstənilən metodun tətbiqi ilkin şərt kimi şagirdlərdə müəyyən bilik və bacarıqların olmasını nəzərdə tutur. Müəllimlər dərsdə istifadə etmək üçün seçdikləri metodların tətbiqi zamanı şagirdlərin hansı potensial çətinliklərlə üzləşə biləcəklərini müəyyən etməlidirlər. İstifadə ediləcək təlim metodlarının təhlili zamanı müəllimlərin bu və ya digər metodun uğur qazanmasının şərti kimi aşağıdakı bacarıqları nəzərdən keçirmələri zəruridir:

- əqli bacarıq
- sosial bacarıq
- fiziki bacarıq
- müstəqil öyrənmə bacarığı

Təlim metodlarının təhlili müxtəlif ehtiyacları olan uşaqlar üçün təlimin planlaşdırılmasında birinci mərhələdir. Növbəti mərhələ uşaqların müxtəlif ehtiyaclarına uyğun olan metodların istifadə olunmasından ibarətdir. Bu isə təlimdə uyğunlaşdırma (akkomodasiya) və dəyişikliklərin (modifikasiyaların) həyata keçirilməsini tələb edir.

Akkomodasiya tədris materialının məzmununu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişməyi nəzərdə tutur. Akkomodasiya eyni zamanda əlilliyi olan uşağın cəmiyyətə adaptasiyasına şərait yaradan mühit və ya vəsaitin də dəyişdirilməsini nəzərdə tutur. Akkomodasiya öyrənməni fərdiləşdirən, materialı dəyişdirmədən öyrətməyə təşviq edən təlim strategiyasıdır. Akkomodasiya nümunələri bunlardır:

- eşitmə əlilliyi olan uşaqlar üçün işarət dili tərcüməsi
- görmə əlilliyi olan uşaqlar üçün elektron mətn danışma sistemi
- görmə çətinliyi olan uşaqlar üçün böyük hərfli vəsaitlər
- öyrənmə çətinliyi olan uşaqlara qismən artıq vaxt ayırmaq

**Sinifdə aşağıdakı sahələr üzrə akkomodasiyaları həyata keçirmək olar:**

- **Fiziki mühitin akkomodasiyası** sinif mühitində, qruplara bölünmədə, uşaqların yerləşdirilməsində uyğunlaşdırmadır.
- **Təlim metodunun akkomodasiyası** müəllimin təlim məzmununu öyrətməsi, eləcə də uşaqların tapşırıqlara cəlb edilməsi nöqteyi-nəzərindən təlim metodunun uyğunlaşdırılmasıdır.
- **Təlimatların akkomodasiyası** müəllimin qayda, metod və gündəlik məşğələləri təqdim etməsi üzrə uyğunlaşdırmadır.
- **Materialların akkomodasiyası** tədris alətləri və materialların şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşdırılmasından ibarətdir.





# Təlimdə modifikasiya

Təlimin modifikasiyası tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişməyi nəzərdə tutur. Tapşırıqların sayı azaldılır, material hissələrə bölünür və s. Beləliklə, modifikasiya şagirdin öyrənməsi üçün materialları dəyişdirən taktika və strategiyadır. Dəyişikliklər önəmlidir, ancaq materialın zənginliyini və şagirdin öyrənməsini təhlükəyə ata bilər.

Modifikasiyanın istənilən növünü uşağın ailəsi ilə müzakirə etmək zəruridir çünki əksər hallarda modifikasiya uşağın bilməli və bacarmalı olduqlarını dəyişir. İstənilən fəaliyyət növündə olduğu kimi, göstərilən hər iki strategiya “planlaşdırma”, “həyata keçirmə” və “dəyərləndirmə” mərhələlərindən keçməli və bütövlükdə təlim prosesinin səmərəliliyini artıran “yardımçı vasitələrdən” istifadə edilməlidir. Təlimdə ümumi uyğunlaşdırma öyrənmə çətinliyi olan uşaqların təlim prosesində uğurla iştirak etmələrinə əhəmiyyətli dərəcədə yardım göstərsə də, onlar üçün fərdi akkomodasiya və modifikasiyalar tələb oluna bilər.




## İnklüziv dərsin planlaşdırılması və tətbiqi

Dərsin planlaşdırılması zamanı bütün şagirdlərin maraqları, güclü tərəfləri, ehtiyacları və dərsin məzmunu nəzərə alınmalıdır. Dərsin səmərəli qurulması üçün aşağıdakı kurikulum üçbucağı tövsiyə edilir:

- *Məzmun* milli təhsil proqramında müəyyənləşdirilmiş məqsədlərə uyğunlaşdırılır
- *Proses* məzmunun öyərədilməsi üçün tətbiq olunan təlim metodlarıdır.
- *Mühit* dedikdə isə təlim mühiti və psixoemosional mühit nəzərdə tutulur.

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.




# İnklüziv təhsildə valideyn təcrübəsi

**Mənzilə Rəhimova (Cəlilabad rayonu)**

Qız övladımız dünyaya gəldikdən bir müddət sonra ona Kistoz fibroz diaqnozu qoyuldu. Bu diaqnozlu uşaqlar daim həkim müayinəsində olur və məhdud həyat tərzi keçirirlər. Onların boyu və çəkisi yaşıdlarından çox geri qalır, nitq problemləri olur, nəfəs almaqda çətinlik çəkir, buna görə də tez yorulurlar. Onlar yoldaşları kimi qaçıb oynaya bilmirlər. Əl barmaqları "baraban" effektlidir. Hər kəsə görə onlar bütün sağlam yaşıdlarından fərqlidirlər. Bu hal onların təhsil almasına potensial maneədir. Ancaq bu maneə məni qorxutmadı və mən onun öz həmyaşıdları kimi ümumtəhsil məktəbində təhsil alması üçün əlimdən gələni elədim. Elladanın 6 yaşı olanda bütün etirazlara baxmayaraq mən onu Cəlilabad şəhər 1 nömrəli məktəbdə Həsənova Dilşad müəllimənin sinfinə qeydiyyatdan keçirdim. Ellada xəstəliyin təsiri ilə bütün ətrafdan hədsiz çəkinir, nitq problemindən utanaraq danışmağa ehtiyat edirdi. Bu vəziyyətdə olan uşağı məktəbə göndərdiyimə görə ilk aylarda məni qınayanlar çox oldu. Amma mən öz qəra-rımdan və seçimimdən razı idim. Dərs prosesində sinif müəllimi, evdə isə özüm Ellada ilə həm dərslərlə məşğul olduq, həm də çoxlu pedaqoji-psixoloji yönümlü söhbətlər apardıq. Uşaq sözləri düzgün tələffüz edə bilmədiyi üçün bəzən gecələr yuxuya gedənən qədər ağlayırdı! Bir necə dəfə evə ağlaya-ağlaya gəldi "Mənim barmaqlarım niyə başqa uşaqlarınkından fərqlidir? Uşaqlar barmaqlarıma baxıb sual verirlər mənə" deyə ağlayırdı. Mən siniflə dost olmağa qərar verdim. Sıx-sıx məktəbə gedib sinifdə uşaqlarla dostluq, yoldaşlıq, humanizm istiqamətli söhbətlər aparırdım. Baxmayaraq ki, işlədiyimə görə bu proses mənə o qədər də rahat olmurdu. İş, məktəb, ev və ən əsası Elladam! Onun cəmiyyətə adaptasiyası üçün daha çox insan görsün deyə rəhbərlikdən icazə alıb tez-tez çalışdığım ADPU-nun Cəlilabad filialına gətirirdim. Yoldaşlarımla, tələbələrimlə ünsiyyətdə olması üçün şərait yaradırdım. Daha çox insan, daha çox ünsiyyət həm xəstəliyini müəyyən müddətçün unutdurmağa kömək olurdu, həm sosiallaşma prosesinə əsaslı təsir göstərirdi. İlk vaxtlarda sinifdə və məktəbdə keçirilən tədbirlərdən kənarda qalırdı. Bu prosesin Elladanın psixoloji durumuna mənfi təsirini açıq görürdüm. Ona görə müəllimi Dilşad xanımın köməyi ilə bütün tədbirlərdə kiçik həcmli çıxışlardan, şeirlərdən başlayaraq Elladanın nitqindən utanmaq problemini də aradan qaldırdıq. Ən əsası isə Ellada da mübariz ruh daha da yüksəlmişdi. Nitqini düzəltmək üçün daha çox kömək tələb etməyə başlamışdı. Çətin tələffüz etdiyi sözlər üçün bir qeyd dəftəri ayırıb mənə yazdırırdı saatlarla olsa belə təkrar edirdik və öyrənənə qədər məşq edirdik. Müəyyən müddət Elladanın dərsə davamiyyətində fasilə yarandı. Çünki xəstəlik şiddətləndi. Xəstəxana şəraitində olsa belə artıq dərslərdən ayrılmaq istəməyən bir Elladamız var idi bizim! Oxusu güclənsin deyə çoxlu hecalı nağıllar oxuyurdu! Ellada 2 ay məktəbdən uzaqlaşmasına baxmayaraq artıq sinfin ən qabaqcıl şagirdlərindən idi! Bu prosesdə artıq bütün ailə səfərbər olmuşdu! Ellada dərslərini artıq təkcə mənlə hazırlamırdı. "Nənə ilə oxumaq mənə maraqlıdır, çünki nənə mənim yaxın dostumdur" deyən bizim həssas körpəmiz. II sinifdə artıq əlaçı oldu. Və...beləcə illər keçdi...Yaşanan bütün ağır günlərə rəğmən, Ellada təhsil aldığı məktəbin ən qabaqcıl şagirdlərindən biri olaraq artıq VII sinifdə oxuyur. Əlaçıdır və bütün məktəbin sevimlisidir. Müəllimlərin balaca köməkçisi, ən nümunəvi şagird adını qazanmış bir yeniyetmədir. Bu gün Ellada qısa hekayələr yazır. Bu gün Ellada bayram tədbirlərinin proqramlarını hazırlayır. Elladamız müəllim olmaq arzusu ilə yaşayır, "Əgər sən müəllim olmasaydın və mənim müəllimim olmasaydı mən indiki Ellada ola bilməzdim" deyir. Qızımın bu qeydi ona həqiqətən dəlalət edir ki, əlilliyi olan övladlarımızın inklüziv təhsil vasitəsilə cəmiyyətə adaptasiya olunmasında valideynlərin rolu böyükdür. Bunu nəzərə alaraq biz valideynlər bu yolda qətiyyətli və əzmkar olmalıyıq.








Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.



# Müəllimlər üçün tövsiyə

Asiya qitəsindəki bir çox müəllimlər, bəlkə də siz özünüz çox sayda uşaq olan və bəzən hətta demək olar ki, bütün otağı dolduran şagirdlərlə dolu ibtidai siniflərlə çalışmaq məcburiyyəti ilə üzləşirsiniz. Faktiki olaraq çoxuşaqlı sinfin "dəqiq ölçüsü" yoxdur. Bu adətən hər müəllimə düşən şagird sayı ilə müəyyən edilir (şagirdlərin müəllimə nisbəti əmsalı). Bəzi ölkələrdə hər müəllimə 25-30 şagirdin düşməsi çoxuşaqlı sinif hesab olunsa da, bəzilərində bu çox normal və hətta kifayət qədər kiçik sinif sayılır.

Çoxuşaqlı siniflərdə sinfinizi rahat, öyrənmə üçün əlverişli etmək məqsədilə işinizi yaradıcı şəkildə qurduğunuz, burada şagirdləri idarə etdiyiniz üçün sizin təşkilati və idarəetmə bacarıqlarınızı inkişaf etdirmək imkanınız var. Bunları nəzərə alaraq, bülletenimizin iyun buraxılışında müəllimlər üçün "Çoxuşaqlı siniflərin tədrisi üçün praktiki məsləhətləri bölüşürük. UNESCO-nun "Müxtəlifliyin dəstəklənməsi: inklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması" üzrə nəşrində təqdim olunan məsləhətlərin ilk 10-u dakılardır:

1. Dərsi əvvəlcədən planlayın və hərtərəfli hazırlaşın. Çoxuşaqlı siniflərdə problem-lər böyüyə bilər, lakin eyni zamanda effektiv şəkildə də həll oluna bilər.
2. Lazımsız mebelləri kənarlaşdıraraq sinfin sahəsindən maksimum istifadə etməklə sinfin xaricindəki sahəni öyrənmə və fəaliyyət sahələri kimi istifadə edin. Sinfin rahat şəkildə qurulması üçün şagirdlərinizin təkliflərini bildirməsini xahiş edin.
3. Şagirdlərinizi tanımaq üçün əlinizdən gələn hər şeyi edin. Şagirdlərlə yaxşı münasibətin qurulması onlarda dərsdə fəal iştirak etmək istəyi yaradır.
4. Şagirdlərinizi hər kəsə interaktiv şəkildə təqdim edin. Özünüzü də təqdim etməyi unutmayın.
5. Danışdığınız zaman sinifdə hərəkət edin – bu şagirdləri dərsə daha fəal şəkildə cəlb edir, o cümlədən şagirdləriniz və sizin aranızda olan fiziki, sosial məsafəni azalda bilər.
6. İstər sinifdə, istərsə də sinifdən kənar-da təbii və səmimi olun – özünüz olun.
7. Şagirdlərinizə onların suallarına cavab vermək üçün dərsdən əvvəl və sonra əlçatan olacağınızı söyləyin.
8. Tez-tez verilən sualları və ya ümumi səhvləri izləyin. Dərslərin hazırlanması zamanı onlardan istifadə edərək şagirdlərə səhvlərdən yayınmağa kömək olun.
9. Sinfi nəzarətdə saxlayın. Sinifdə nəsə baş verdiyini hiss etdikdə şagirddən nə baş verdiyini soruşun. Kiçik şagird qru-punu vacib sinif məsələlərini müzakirə etmək üçün sizi ziyarət etməyə dəvət edin. Lazım olduqda şagirdləri cəlb edin və pis davranışla mübarizə aparmaq üçün müsbət intizamdan istifadə edin.
10. Dərslərinizin məzmununu, şagirdlərinizin bilik və bacarıqlarını yoxlamaq, xüsusi diqqətə ehtiyacı olan şagirdlərin müəyyən edilməsi, eləcə də şagirdlərin həyat təcrübələri ilə əlaqə yaratmaq üçün şagirdlərinizə anket və ya diaqnostik test verin.

## ƏLAQƏ VASİTƏLƏRİ

**WEBSITE:**
www.inkluzivtehsil.az

**TELEFON:**
012-505-01-50

**E-POÇT:**
info@ie-rt.az

**FACEBOOK:**
@inkluzivtehsilAzerbaycan

**İNSTAGRAM:**
@inkluzivtehsil

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.